FEYRUZ BAĞIROV

BURSA · 1996



ZİYARƏT · YOL QEYDLƏRİ · İRAN

ZİYARƏT NAMƏ

Naxçıvandan İran İslam Respublikasının Xorasan vilayəti Məşhəd şəhərindəki müsəlmanların 7-ci imamı Hz. Riza (r.ə.)-ın türbəsini ziyarətə gedən turistlərə məlumat bələdçisi.

BURSA — 1996

(Yol qeydləri)

FEYRUZ BAĞIROV

Ziyarətnamə

(Yol qeydləri)

(Kitab, Naxçıvandan İ.İ.R.-ın Xorasan vilayəti Məşhəd şəhərindəki müsəlmanların 7-ci imamı Hz. Riza (r.ə.)-ın türbəsini ziyarətə gedən turistlərə məlumat bələdçisidir)

Məsləhətçilər: Məşhədi Kamil Qasım oğlu; Məşhədi Məhəmməd Cabbar oğlu

Redaktor: Z. H. İsmayılova · **Korrektor:** H. Bağırov

Bursa — 1996

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

Bismillahir-Rəhmanir-Rəhim!

(Bağışlayan və mehriban Allahın adı ilə!)

Mündəricat

1 Ön söz 004

2 Giriş 006

3 Xorasana aparan yol 009

4 Foto şəkillər 034

BÖLMƏ

Ön söz

Yeni ictimai şəraitdə cəmiyyət həyatının bütün tərəflərində olduğu kimi aləmdə dəyişiklik yaranmışdır. Bu dəyişikliyin başlıca səbəbi dövrün keçməkeçliyi, psixoloji vəziyyətin yüksək nöqtəyə çatması və nəhayət həyatın çəkdirdikləri amildir. Bütün bunlar insan mənəviyatı ilə bir araya sığmayan mücərrəd aksiomalardır. Beləliklə, günbəgün mənəviyatımıza gələn zərbələr insanlarda özünü dərketmə şüurunu oyadır və hər bir insanı dövrün yazılmış qanunlarını analiz etməyə yönəldir. Bir sözlə, zamanın sərt sınagı insanları həyatın axarına salır.

Bu axara sürükləyən insan tarixdə özünəməxsus mövqeyi o zaman qazanır ki, o insanın şərəfli həyat yolu keçmiş milləti, ona layiq dövləti və layiqli dili vardır.

Onu demək lazımdır ki, dövlət millətlə, millət dinlə pak olur. Bu dediklərimiz öz təsdiqini söylədiyimiz fikirlə tam olaraq tapır; -“Düşmənlərdən qorxma, dini – imanı olmayandan qorx!”

Uzun illərdir ki, xalqımız müqəddəs islam dininə inam gətirir, tək bir olan Allaha sitayiş edir və Hz. Məhəmməd (s.ə.s.) peyqəmbərə güvənir.

İmperiya əsarətinin rütübətli zəhəri dini dövlətdən ayırsa da, insan qanından ayıra bilmədi. Müsalman kimi dünyaya gələnlər İslam dininə ibadət etdilər. Allahın hüzurunda duraraq, peyqəmbərin dediklərini ürəklə həyata keçirdilər.

Sevimli peyqəmbərimiz belə demişdir;-“Müsəlmanlıq beş təməl üzərində qurulub: Allahdan başqa qulluq ediləcək hec bir ilah olmadığına və Hz. Məhəmməd əleyhissalamın onun qulu və rəsulu olduğuna inanmaq. Namaz qılıb oruc tutmaq, xümslə zəkat verib həcca getmək.”

Peyqəmbərimizin bu mübarək sözlərinə görə islamiyyət beş təməl üzərində qurulmuşdur. Beləliklə hər bir bəşər övladı bu beş işi görərsə o, kamil müsəlman, Allahın qanunlarına inanan mömin bəndəsidir.

Qədim Naxcıvan diyarında müsəlmanların saysız-hesabsız mömünləri vardır. Belə mömünlərdən biri də Məşədi Feyruz Abdulla oğludur.

Hələ gəncliyindən bütün varlığı ilə dinə, Allaha, peyqəmbərə və imamlara bağlı olan bu ziyalı, Allahın izni və köməyi ilə ziyarətə getmiş.

Allah qarşısında borcunu yerinə yetirən Feyruz müəllim, Allahın bəndələri üçün də xeyirxah və savab iş görməyi özünə borc bilir. O, elə bu yazdığı bələdçi kitabını nəşr etdirdikdən sonra mömin ziyalılara təmənnasız yayılmasını-hədiyyə verməsini öz qarşısına məqsəd qoymuşdur.

Ta qədimdən bu yana uzaqgörən və təvəzökar möminlər getdiyi, gəzdiyi yerlər haqqında təəssüratlar, qeydlər, xatirələri yazaraq tarixə salardılar. Həmin işləri görən və Hz. İmam Riza (r.ə.) -ın rövzəsini ziyarətə getmək istəyənlər üçün layiqli vəsait olan "Ziyarətnamə" kitabı oxuculara xoş təəsürat bağışlayacaqdır.

Kitab turizm və coğrafiya ilə maraqlananlar üçün əhəmiyyətlidir. Çünki həyatda hər bir müsəlmana müqəddəs yerlərə ziyarətə getmək nəsib olmasa da, kitab oxucuda həmin yerlər haqqında müəyyən təsəvvür yaradır.

Pak müsəlmanlıq duyğusunu Allah, peyqəmbər və imam sevgisi ilə müəllifin kitabı insanları psixoloji təsirlə mənəvi ziyarətə aparır. Elə buna görə də "Ziyarətnamə" kitabı, daha çox imanlı insanlara, turist və zəvvarlara nəhayət ki, Hz. Riza (r.ə.) -ın rövzəsini görmək niyyətində olanlara faydalı elmi- mənəvi və sosial-coğrafi bir vəsaitdir.

Yeni yazılmış hərbir kitab o zaman dəyərli olur ki, öz oxucusunu axtarıb tapsın. Bu vəsaitdə turizmlə maraqlanan oxucular layiqli mənəvi biliklərə yiyələnəcək və müəllifə uğurlar gətirəcəkdir.

Uca Allah hər bir xeyirxah mömin ziyalılara Dünyadakı savab əməllərinə görə kömək olsun! Amin!

> *"Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini də görəcəkdir."*
>
> (Quran)

Zülfiyyə Hüseyn qızı İsmayılova.

Naxçıvan Dövlət Universiteti, 1996.

FƏSİL 2

Giriş

Mən Naxçıvanda dindar-ziyalı ailəsində Dünyaya gəlmişəm. Atam dövrünün ziyalısı kimi, gəzib dolandığı şəhərlərin coğrafiyası geniş olmuşdur. Belə ki o, Təbrizdə, Tehranda, Bakıda, Gəncədə, İrəvanda, Tiflisdə, Batumda, Odessada, Həştərxanda, Moskva və Peterburqda da olmuşdur.

Atam anamla ailə qurduqdan sonra bir neçə il Gəncədə yaşamış və uşaqlarının bir neçəsi orada anadan olmuşdur. O, hökumət qulluqçusu olsa da, gecələri evdə çıraq işığında dini kitablar oxuyardı.

Anam körpəlikdən anadan yetim qalmış və erkən yaşlarından atama dehli etmişlər. O, savadsız olsa da xeyirxah bir evdar qadın olmuşdur. Coxuşaqlı olduğuna görə anama iki dəfə "Qəhrəman ana" fəxri medalını vermişlər.

Yaşadığım mühitdə gənclik illərinədək İslam mənəviyyatı mənə uzaq idi. Bunun əsas səbəbi təhsil və tərbiyədə ateist təbliğatının güclü olması idi. Lakin bəzi mənəvi bilikləri evdə atamdan görüb öyrənmişdim .

Həyatımda iki dəfə uşaq və gənclik illərində Naxçıvandakı müqəddəs yer sayılan "Əshəbi-kəhf" ziyarətgahında olmuşam. Hətta niyyət edib bir gecə də oyaq qalıb oradakı "qəndil"in möcüzəvi surətdə işıqlanmasına maraq göstərmişəm...

Atam təqaüdə çıxandan sonra, Xorasana-Hz. İmam Riza(r.ə.)-ın rövzəsinə ziyarətə getməsini arzulardı. Lakin Sovetlər dönəmində möminlərin xarici ölkələrə gedilməsi müşkül məsələ idi.

O, günün çox vaxtını evdə kitab oxumaqla və radio qəbuledicidən "Təbriz radiosu" dalğasını dinləməklə keçirərdi. Atam həmişə deyərdi ki,-"Allaha, peyqəmbərə və imamlara iman gətirib və Allahdan ruzi istəyənlər heç vaxt əliboş qalmazlar." O, çox istəyirdi ki, mən Allaha etiqadlı olam. Lakin ürəyimdə Allah xofu olsa da, meylimi salmışdım rəsm çəkməyə.

Sovet dövləti vətəndaşlarda mənəvi hisslərə qorxu yaratdığından yeniyetmələr iki yol ayrıcında qalmışlar...

1972-ci ilin payızında atam qara ciyər iltihabından xəstələnib yatağa düşdü. Yazda səhhəti yaxşılaşsa da, yenə də əvvəlki kimi evdə oturub köhnə kitablardan, otlarla müalicə üsulları haqqındakı yazıları dəftərinə köçürürdü. Xalq tbabətinə aid qədim müalicə üsulları haqqında yüz vərəqlik dəftəri yazıb tamamlamışdır. Həmin dəftəri onu müalicə edən həkimə bağışlamaq niyyətində idi.

1973-cü ilin noyabr ayının sonunda, atam yenidən xəstələndi və ömrünü bizə bağışladı...

Atamın vəfatından sonra isti evimizdə sanki soyuqluq yaranmışdır. Tezliklə dəfn mərasimindən sonra əmim, atamın şəxsi kitablarını seçərək apardı. Mən nə edəcəyinğmi bilmirdim. Bir sual məni çox düşündürürdü necə edim ki, Hidayət olum?

Başladım ana dilində yazılmış dini kitabçalar olan İslam əxlaqını oxuyub-öyrənməyə. İslam dininin əsası sayılan Namazı öyrənməklə ibadətə başladım. Tövbə edib gənclik illərindəki günahlarımın bağışlanmasını Allahdan istədim. Mütəmadi olaraq namaz qılıb və Ramazan ayının orucunu tutdum. Cümə günləri məscidə gedib möminlərlə bərabər ibadət etdim. Cümə axşamlarında valideynlərimin ruhlarına dua edib Allahdan bağışlanmasını istədim.

Evimizdəki Quran kitabını vərəqlədikcə Hz. Peyqəmbərimizə salavat duası edərək, ərəb əlifbasında oxumaq həvəsinə düşdüm. Tezliklə lüğət əldə edərək, ərəb əlifbası ilə yazıb-oxumağı da öyrəndim. Beləliklə Allaha, Onun Quranına, Peyqəmbər və İmamlara inam gətirərək, Hidayətə qovuşdum. Bütün bunlar isə əsas arzularım idi ki, artıq Allahın köməkliyi ilə həyata keçmişdir.

Tezliklə özümə imanlı möminlərdən dostlar qazandım. Dostlarım yaşda məndən böyük olaraq hacılar, kərbəlayılar və məşhədilər idi.

Onların ziyarətgahlarla bağlı maraqlı söhbətlərində istər-istəməz məndə də, ziyarətə getmək həvəsi yaratdı. Namazlarda Allaha dua edib Xorasana- İmam Riza (r.ə.)-ın rövzəsinə ziyarətə getməyimi arzuladım.

Allah (c.c.) tezliklə duamı qəbul edib və məni arzularıma çatdırdı. Bu isə həyatımda ən böyük xoşbəxtlik və yadda qalan əlamətdar gün idi. Allaha şükür edərək, arzusunda olanlara da ziyarət qisməti istədim.

Allah (c.c.) böyükdür, mərhəmətlidir və günahları bağışlayandır. Ona salam olsun! Amin!

1995-ci ildə İran İslam Respublikasının Xorasan vilayətindəki qədim Tus (Məşhəd) şəhərinə səfərə çıxıb, yol təəssüratlarım əsasındakı qeydlərimi Allahın mərhəməti ilə

yazıb və “Ziyarətnamə” adlandırdığım kitabda dəyərli oxuculara bildirirəm.

“İnsanı süst, tənbəl edər cəhalət,

Bilik qüvvə verər, bir də cəsarət.

Elmdə hər şeydən vacibdir, gercək,

İnsan öz zatını tanısın gərək,

O şey ki, xalq onu ziyarət sayır,

O, buna doğru hey addımlayır.

Zənn etmə sən özün ora gedirsən,

Əgər çağırmasa, hara gedərsən?

Gör qəbul edirmi bir səni Allah,

Sonra əllərini qaldır yuxarı.

“İsmi-Əzəm”i də bilər o insan,

Ki, birdir dili ilə qəlbi hər zaman.”

(M. Əhvədi “Cami-cəm, “Bakı-1970, səh. 197)

> *“(Ya Rəsulum!) Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: “Əgər (Allaha) şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan!”*
>
> **(Quran)**

“Bilmədiyin şeyi soruşsa hər kəs,
Mənzilə düz gedər yolu itirməz.”
(Sədi Şirazi)

FƏSİL 3

Xorasana aparan yol

Bismillahir-rəhmanir-rəhim!

1995-ci ilin 6 avqust tarixində bazar günü xəbər gəldi ki, iki gündən sonra Culfa gömrükxanasına getməliyəm. Coxdan gözlədiyim xəbərdən sevinərək şad oldum. Ona görə ki, arzusunda olduğum İran ölkəsindəki Xorasan vilayətinə səfərə çağrılmışdım.

Mən səfərə çıxmaq üçün lazımi qaydada hazırlıq görərək, məscidə ibadətə getdim. Orada mömin dostlarımla görüşüb, Xorasana gedəcəyimi bildirib və onlardan halallıq istədim. Məsciddəki dostlarım bu xəbərdən məmun olaraq mənə xeyirli məsləhətlər verdilər. Bundan sonra isə yaxın qohum-əqraba ilə, dost-tanışla və qonşularla halallaşaraq ailə üzvlərimə lazımi tapşırıqlar verdim.

Nəhayət ki, gözlədiyim gün gəlib çatdı. Sübhdən namaza durub ibadət etdim, Allaha dua edərək səfərimin uğurlu olmasını arzuladım, evə lazımi xərclik qoyub və ailə-uşaqlarımla sağollaşdım...

8 avqust 1995-ci il (Cərşənbə axşamı).

Səhər saat 1000-da maşınla Culfa şəhərinə getdim. Culfa gömrükxanasına çatdıqda, artıq orada İran İslam Respublikasındakı Culfa şəhərinə keçid başlamışdır. Gömrükxanada tezliklə mənimlə gedən adamlarla görüşüb və keçiddə növbəyə dayandım. Asanlıqla gömrükxana qeydiyyatından keçdik. Xoşbəxtlikdən həmin gün yalnız İrana keçən turist-zəvvarlar üçün yol açılmışdır...

Arazın üstündən hər iki Culfa şəhərlərini bir-biri ilə birləşdirən dəmirdən düzəldilmiş geniş körpü ilə addımlamağa başladım. Bir neçə addım atdıqdan sonra sevincdənmi ya da ki, Arazdan əsən xəfif mehdənmi gözlərim yaşardı. Körpüdə Allaha şükr edərək gəlib İran Culfasına çatdıq. Çevrilib arxaya baxdım Vətənlə sağollaşıb, İran Culfasına salam verdim.

İran İslam Respublikası, Qərbi Asiyada müstəqil bir dövlətdir. Şimalda Azərbaycan , Ermənistan, Türkmənistanla, şərqdə Əfqanıstan və Pakistanla, qərbdən Türkiyə və İraqla həmsərhəddir. Şimaldan Xəzər dənizi, cənubdan isə İran və Oman körfəzləri ilə əhatələnmişdir.

Dövlətin torpaq sahəsi 1648 min km2, əhalisi 37 milyona (1980-cı ilin st. məl.) yaxındır. Paytaxtı qədim Tehran şəhəridir. İran dövləti 1979-cu ilin ortalarından 23 inzibati vilayətə (ostana) bölünmüşdür.

1979-cu ilin fevralın 12-dən (Bəhmən ayının 22) İran İslam İnqilabı nəticəsində şah üsulu (monarxiya) dağılmış və həmin ilin 30 mart tarixdən İran İslam Respublikası yaradılmışdır.

Dövlətin prezidenti, parlamenti (Xalq Şura Məclisi) və Baş naziri vardır. Dövlətin Konstitusiyasına (Əsas qanunu) görə prezidentlə millət vəkilləri 4 il müddətinə seçilirlər. Hökuməti Baş nazir qurur, prezident isə təsdiq edir.

İranın fiziki-coğrafi quruluşu yayla və dağlardan ibarətdir. Şimalda Xəzər dənizi yaxınlığında Elbrus dağlarındakı Dəmavənd vulkanik zirvəsi okean səviyyəsindən 5604 m. yüksəkdədir.

İranın yeraltı faydalı sərvətləri əsasən neft, qaz, daş kömür, dəmir, xrom, polimetal, mis filizləridir. Nadir elementlərdən boksit, kükürd, sürmə, daş duz və başqa faydalı qazıntılara malikdir.

Ərazisinin iqlimi Xəzər dənizi sahillərində rütubətli, cənubda sahil boyu tropik və qalan yerlərdə isə subtropik-kontinentaldır.

İranda axarsız quruyan göllərlə çaylar da vardır. Yeraltı kəhriz sularından geniş itifadə olunur.

İranda 30-dan artıq xalq yaşayır. Onlar farslar (13,5 milyon), Azəri türkləri (13 milyon), kürdlər, talışlar, əfqanlar, türkmən və taciklər, ərəb və ermənilər də yaşayırlar.

Dövlətin rəsmi dili fars dilidir. Əhalinin yarıdan çoxu şiə təriqətli müsəlmanlardır.

Böyük şəhərləri Tehran, İsfahan, Məşhəd, Təbriz, Şiraz, Əhvaz və başqalarıdır.

> *"Əlif, Lam, Mim! Rumlular (iranlılara) məğlub oldular. Dünyanın ən dərin bir yerində. Lakin onlar məğlubiyyətlərindən sonra qalib gələcəklər. Allahın köməyi ilə. (Allah) istədiyinə kömək edər. O, yenilməz qüvvət və mərhəmət sahibidir!"*
>
> **(Quran)**

İranda bizim 1 manat onların 700 tümənino bərabər tutulurdu. Saatlarımızı yarım saat geri çəkib İran vaxtı ilə uyğunlaşdırdıq.

Saat 1200-də Culfanın istirahət parkında dincəlib, yemək yeyib, çay içib, dəstəmaz alıb və günorta namazlarını oradaca qılmalı olduq.

Parkda turist-zəvvarlar üçün hər şərait yaradılmışdı. Xüsusi ilə yaşıllıq içərisindəki su fəvvarələri adamı heyran edirdi. Orada dörd nəfər naxçıvanlılarla görüşüb tanış oldum. Onlar Babək rayonundakı Güznüt kənd sakinləri idi. Kərbəlayi Oruc, Kərbəlayi Qulu oğlu, Kərbəlai Zeynalabdin Mehralı oğlu, Kərbəlai Allahverdi Yəhya oğlu və Adil Cabbar oğlu ilə oturub çay içib söhbət elədik.

Orada bizimlə gedən zəvvar dəstəmizdə 150 nəfər Naxçıvan şəhərindən, Babəklə Culfa rayonlarındakı kəndlərdən də adamlar var idi. Dəstəmizə başçılıq edən Məşhədi Əli Kərbəlayi Mustafa oğlu, onun köməkçiləri isə Məşhədi Kamil Qasım oğlu ilə Məşhədi Məhəmməd Əli oğlu idi. Dəstə başçıları avtobus dalınca gedib, sonradan axşam yola çıxmağımızı elan etdilər...

Culfa şəhəri kiçik olub, giriş-çıxış yolları da azdır. Şəhərdəki evlər iki-üç mərtəbəli ictimai binalardır. Burada əhali az yaşadığından, dükan-bazarı da azdır. Əhalisi Azərilərlə, farslardan ibarətdir. Şəhərdə tək-tək ərzaq dükanlarında erməni satıcıları da vardır.

Burada iki qəssab dükanından biri erməni, digəri isə azəridir. Maraqlıdır ki, erməni dükanında satılan 1 kq qoyun əti 500 tümənə, azəri qəssabı isə həmin əti 700 tümənə satırdı.

Dükanlardakı malların əksəriyyəti “şurəvi” olmaqla bizim tərəfdən aparılmışdır.

İrana keçən vətəndaşlarımız, tümən pulu əldə etmək üçün məcburiyyət üzündən bizim malları aparıb orada satırlar. Həmin malların qiymətləri bizdəkinə nisbətən on dəfə baha satılır. Satılan malları Tehran və digər cənubda yerləşən şəhərlərə aparırlar.

Şəhərdə şirniyyatla bakkal dükanları azdır. Küçələr təmiz və səliqəlidir.

Hər dükanda sərin su içmək pulsuzdur. Çayxanalar yalnız böyük dükanların içərisində yerləşir. Mən yeni dostlarımla şəhəri gəzib yoruldum və dəstəmiz olan yerə qayıtdım. Orada adamlar arasında inciklik yaranmışdır. Tezliklə məlum oldu ki, iranlı sürücülər adam başına maşın haqqını 5.000 tüməndən 7.000 tümənə qaldırmışlar...

Axşam saat 1600-da yığışdıq Culfadakı “Turist-zəvvar Evi”nə. Bina əvvəllər köhnə məktəb yeri olduğundan, turist-zəvvarlar üçün lazımi şərait yaradılmamışdı. Hətta burada yeməkxana ilə istirahət otaqları da yox idi.

Dəstə başçıları siyahı ilə üç avtobus sürücülərinə pul yığmağa başladılar. Adamlar gediş haqqının artırılmasından yenə də narazılıq etməyə başladılar. Sürücülər son dəfə qəti surətdə bildirdilər ki, hər nəfərə gediş haqqı 7.000 tümən pul yığılmasa Xorasana getməkdən imtina edəcəklər.

Dedikləri məbləği yığıb onlara verdik. Lakin nədənsə üçüncü avtobus gəlib çıxmadı.

Axşam saat 2000-dək gözlədik. Axır ki, üçüncü avtobusda gəlib çıxdı. Həmin avtobusda sürücülərin Mərənddən mindirdikləri arvad-uşaqları da var idi. Qəribədir ki, istədikləri məbləği verdik, lakin avtobusların sürücüləri hara isə çıxıb getdilər. Bütün bu gecikmənin səbəbini sonradan bildik. Əgər maşınlar tez yola çıxsa idi, Təbrizə gündüz çatmalıydıq. Fikrimizdə var idi ki, Təbrizdə düşüb, böyük Azərbaycan şairi Məmmədhüseyn Şəhriyarın məzarını da ziyarət edək. Lakin sürücülər fars olduqlarından, planımızdan xəbərdar olub və aldıqları göstəriş əsasında bilərəkdən yola gec çıxdılar.

“Turist-zəvvar Evi”ndə bizə bir oğlan azəricə danışaraq səmimiyyətini göstərdi. Həmin adam Culfanın Şucə kənd sakini Ramazan Cəlili adlı xeyirxah xidmətçi idi. O, orta yaşlı olsa da, vaxtından əvvəl qocalmış bir şəxs idi. Ramazan Cəlili bizimlə mehribancasına danışaraq pulsuz çaya qonaq elədi...

Axşam namazlarını orada qıldıq, şam yeməyi yeyib və çay süfrəsi ətrafında söhbət etdik.

Axşam saat 2230-da maşınlara minib Xorasana yola düşdük. Üç avtobus hər birində 50 nəfərlik oturacaq yerləri tutulmuşdu. Mən Adil ilə bərabər qadın və qocalardan arxa cərgədə oturub, pəncərədən ətrafa maraqla baxırdım.

Avtobusdakılar bir səslə “Allahu əkbər” deyərək dua oxudular və peyqəmbərə salavat dedilər.

Gecə saat 0125-də Sofyana çatdıq. Orada maşınlardan düşüb su içdik və yenə də yolumuza davam etdik.

Sofyan İranın şimal-qərbində kiçik şəhərlərdəndir. Burada böyük sement zavodu fəaliyyət göstərir...

Gecə saat 200-də Təbrizə çatdıq. Təbriz şəhərinin gecəsi də gündüzü kimi işıqlı, gözəl və yaraşıqlı idi. Küçələr və binaların birinci mərtəbəsindəki dükanlar lüminesen elektrik lampaları ilə rəngli işıqlarla bəzədilmişdir.

Gecəyarı olduğundan küçələrdə adamlar görsənmirdi. Təbrizə çatanda maşındakılar peyqəmbərə salavat dedilər. Nehrəmli Kərbəlayi Heydər Məhəmməd oğlu, Təbrizi gördükdə ürəyi cuşa gəldi və mərsiyə oxumağa başladı. Maşındakılar onun məlahətli avazından məmun olaraq, qafiyələri bir səslə oxudular...

Təbriz-Cənubi Azərbaycanın (İran ərazisində) ən böyük şəhəridir.

Şəhər Şərqi Azərbaycanın vilayəti (ostanının) mərkəzində olub avtomobil və dəmir yolu qovşağındadır. 1916-cı ildə Culfadan Təbrizə ilk dəmir yolu çəkilmiş, sonradan 1981-ci ildə elektrik dəmir yoluna çevrilmişdir.

İran İslam Respublikasının paytaxtı Tehrandan Təbrizə dəmir yolu məsafəsi 751 km-dir. Həmin yol 1958-ci ildə Sovet dövləti tərəfindən çəkilmişdir.

Təbrizdə Acı çayın vadisində beynəlxalq təyyarə limanı vardır. Şəhər okean səviyyəsindən 1364 m. yüksəklikdədir.

Şəhərin əhalisi 600 minə yaxın olaraq əsasən azəri türklərindən ibarətdir. Burada farslarla yanaşı erməni və kürdlər də yaşayırlar.

Təbriz eranın üçüncü əsrində Atropatenanın əsas şəhərlərimdən idi.

1945-ci ildə Təbrizdə Azərbaycan Demokrat Firqəsi yaradılmış.

1978-79-cu illərdə təbrizlilər şah rejiminə qarşı inqilaba qoşularaq İranda yeni demokratik dövlət yaratdılar.

Təbrizdən tarix boyu görkəmli şəxsiyyətlər çıxmış. Onlar Qətran Təbrizi, Xətib Təbrizi, Şəms Təbrizi, Əssar Təbrizi, Məmmədhüseyn Şəhriyar və başqaları idi.

Şəhərdə maşınqayırma və metal emalı, yüngül və yeyinti, neft emalı ilə şüşə sənayesi sahələri də inkişaf etmişdir.

Təbrizdə 200 sayda məscid, onlarca mədrəsələr, hamamlar, xanəgahlar, türbələr, körpülər və sairə qədim abidələr vardır.

Təbrizdə qədim tarixi abidələrdən biri də Əlişah məscidi, Ərk qalası, Göy məscid və sairə qorunaraq mühafizə olunur. Tarix boyu Təbriz şəhəri bədii sənətkarlıq və miniatür

rəssamlıq mərkəzi olmuşdur.

9 avqust 1995-ci il (Çərşənbə günü).

Səhər saat 530-da avtobuslar Miyanə adlı qəsəbəyə çatdılar.

Miyanə kiçik yolüstü salınmış qəsəbə idi. Burada iki mərtəbəli yaşayış evləri tikilmişdir.

Miyanə Azərbaycanın qədim şəhərlərindən biridir. Şəhər, Təbriz - Tehran dəmir yolu stansiyası üzərindədir. Əhalisi Azəri türklərindən ibarət olmaqla 28,5 min (1976-cı ilin st. məlumatı) nəfərdir. Burada taxılçılıq, çəltikçilik, pambıqçılıq və meyvə- tərəvəz yetişdirilir.

XVI əsrdə Miyanə, Səfəvilər dövlətinin tərkibində olmuşdur. Miyanəlilər də 1978-79-cu illərdə şah monarxiyasına qarşı İran inqilabında fəallıq göstərmişlər. Şəhərin cənub hissəsində Qaflantı dağının ətəyində, Qızılüzən çayı üzərində XII əsirdə tikilmiş "Qız körpüsü" tarixi memarlıq abidəsi vardır. Həmin körpünü 300 il sonra memar Məhəmməd Osman oğlu təmir-bərpa etmişdir. Miyanə şəhərində qədim memarlıq abidələrindən Cümə məscidi, İsmayıl (Kəmaləddin) türbəsi, "İmamzadə"yaxınlığındakı hündürlüyü 13 m.-ə çatan minarə və s. vardır. Avtobusdakı möminlər dəstəmaz alıb, açıq yerdə sübh namazı qıldılar. Adamlar avtobuslara minib yolumuza davam etdik.

Bir saatdan sonra Qızılüzən (Qaflar) çayının sol sahilindəki kiçik bir yeməkxanaya çatdıq. Adamlar maşınlardan düşərək istirahət etdilər. Zəvvarlar yeməkxanada bişirilmiş səhər yeməyi yeyərək çay içdilər. Səhər yeməyində təzə şam balı ilə kərə yağı, yumşaq lavaşla ətirli çay verilirdi. Bir pay yemək (bal-kərə, lavaş və çay) 200 tümənə başa gəlirdi.

Mən özüm ilə götürdüyüm "Zenit" markalı fotoaparatımı işə saldım. Orada bir neçə şəkil xatirə üçün çəkdim.

Yolda adamlar sürücüyə narazılıq etdilər ki, niyə Təbrizdə Şəhriyarın qəbirinə tərəf gedilmədi?

Sürücülər (onlar iki nəfər idi) bildirdilər ki, Şəhriyar adi adam olmuş və onun qəbirini ziyarət etmək vacib sayılmır.

Buna baxmayaraq adamlar xahiş etdilər ki, qayıdan başı mümkün eləsinlər ora da ziyarət olunsun.

Adamlar maşınlara oturub “Ya Allah Sən kömək ol!” deyərək hərəkətə başladıq. Avtobuslar Xorasana tərəf Zəncan yolu ilə saatda 80 km. sürətlə gedirdilər.

Səhər saat 845-də Zəncan şəhərinə çatdıq. Bura kiçik şəhər olsa da Təbriz-Tehran avto və dəmir yollarının üstündədir. Şəhərdə təyyarə limanı da fəaliyyətdədir. Zəncan şəhərinin əhalisi Azəri türkləri olub, 65 min (1972-ci ilin st. məlumatı) nəfərdir. Şəhərdə kibrit fabriki, yeyinti sənayesi müəssisələri ilə dəri və xalçaçılıq məmulatı inkişaf etmişdir. Tarixçi H. Qəzviniyə görə Zəncan şəhəri, Sasani hökmdarı Ərdəşir (224-241) tərəfindən salınmışdır. Ərazidə taxıl bitkiləri ilə yanaşı texniki bitkilər də becərilir. 1946-cı ildə şahlıq tərəfindən Zəncan ərazilərini farslaşdırmaq niyyəti ilə qubernatorluq yaradılır. 1976-cı ildən isə ərazilər ostanlığa çevrilmişdir. Zəncanda qədim dövrlərə aid Hacı Mirzə Əbülqasim məscidi, Cümə məscidi, Səngi karvansarası, “İbrahim imamzadəsi” və başqa memarlıq abidələri də vardır. Zəncandan 12-ci əsrdə Nərgizi, 13-cü əsrdə İzzəddin və Kəmaləddin Zəncani, 17-ci əsrdə Rəfiəddin, 19-cu əsrdə Məhəmməd Hidəci və başqa şair və alimlər çıxmışlar. Şəhərdəki cənubdan qərbə tərəf axan Zəncan cayının suyu yay aylarında quruyur.

Maşınlar yol kənarında olan bulaq başında dayandılar. Su qablarımıza bulaq suyundan doldurub tezliklə yola düzəldik.

Maşınlar şərqə tərəf hərəkət edirdilər.

Saat 1000-da Əbxar deyilən bir şəhərə çatdıq. Şəhər Zəncan vilayətinin şərq qurtaracağında , şərq istiqamətində axan Əbxarud çayının üstündə salınmışdır. Avtobuslar hərəkət edib Qəzvin vilayətinə çatanda, birdən-birə cənub-şərq istiqamətində yolu dəyişdilər. Sürücülərin məqsədi əsas baş yoldan ayrılaraq endiz dar yola düşmək idi.

Qəzvin şəhəri, Elbrus dağının cənub tərəfində (Tehran ostanında) olan dəmir yolu ilə avto yollarının qovşağındadır. Əhalisi Azəri türkləri ilə farslardan olaraq 110 min (1974-cü ilin st. məlumatı) nəfərdir. Ərazidə kənd təssərrüfatı bitkilərindən taxılçılıq, üzümçülük və püstə bağları ilə zəngindir. Burada yeyinti sənayesi ilə bərabər toxuculuq əv xalçaçılıq da inkişaf etdirilmişdir. Tarixi mənbələrə görə Qəzvin şəhəri Ərdəşir şahın (224-241) dövründə salınmışdır. Şəhər, 1548-1597-ci illərdə Səfəvilər dövlətinin paytaxtı olmuşdur. 18-ci əsrdən Qəzvin öz əvvəlki şöhrətini itirir. Şəhərdə qədim memarlıq abidələrindən “Harun tağı”məscidi, “Xumartaş künbəzi”, “Heydəriyyə məscidi”, Ali Qapı sarayı, Şah məscidi, Qirxsütun imarəti və başqalarını misal çəkmək olar. Qəzvindən

görkəmli şəxsiyyətlər çıxmışdır. Onlardan Həmdullah Qəzvini, Mir Yəhya Qəzvini, Budaq Qəzvini, Zəkəriyyə Qəzvini və başqalarını göstərmək olar...

Saat 1200-də Qəzvinin Buyin qəsəbəsinə çatdıq. Qəsəbə çox da böyük yaşayış yeri deyildi. Buranın əhalisi farslardan ibarətdir. Yerli adamlar qəsəbəyə Buyin Zəhra adı da deyirlər. Qəsəbənin şimal hissəsində təyyarə meydanı da vardır.

Buyin qəsəbəsi böyük düzən ərazidən ibarət olaraq, okean səviyyəsindən 1500 metr yüksəkdədir. Ərazinin şimal hissəsində yay aylarında suyu quruyan Xarrud çayı, şərq istiqamətində axır.

Biz burada istirahət edərək, su götürüb maşınlara mindik. Avtobuslar cənub-şərq tərəfə düz yol ilə hərəkət etməyə başladılar.

Saat 1420-də Save deyilən kiçik bir qəsəbəyə çatdıq. Save qəsəbəsi okean səviyyəsindən 800 metr yüksəklikdədir. Qəsəbə dörd yol ayrıcında salınmış. Buradan Quma, Həmədana, Tehrana və İsfahana yollar ayrılır.

Qəsəbənin yaxınlığında təyyarə meydanı da vardır. Buranın əhalisi əsasən fars dillidir.

Möminlər qəsəbədəki yeməkxanaya yapışıq boş otaqlarda günorta namazlarını qılıb, nahara oturduq. (Məlumat üçün bildirim ki, dini qanunlara görə vətəndən uzaq yerdə qılınan dörd rükətli namazlar müsafirlər üçün iki rükət kimi qılınır.)

Onu da deyim ki, qəsəbədə dayanmağı yalnız möminlərin ibadətinə görə edildi.

Adamlar qısa istirahətdən sonra saat 1445-də maşınlara minib yola düşdük. Avtobuslar şərq tərəfə hərəkət edərək, bir saatdan sonra Mənzəriyyə kəndindən cənuba doğru yollarını döndülər.

Maşınlar yoldakı Qaraçayın körpüsünü də keçib, saat 1600-da Qum şəhərinə gəlib çatdıq. Burada havanın hərarəti +40°C-dən yuxarı idi. Günəşin istisindən şəhər kənarındakı alçaq evlərin divarları çatlamış. İki mərtəbəli evlərdə su ilə işləyən iri formalı kondisionerlər (süni hava sərinləşdiricisi) qoyulmuşdu.

Qum şəhəri İranın "Dəryaçay-nəmak" adlı şor sulu gölün qərb hissəsində, okean səviyyəsindən 815 metr yüksəklikdə yerləşir.

Qaraçayın sağ qolu olan Qum çayı, şəhərin içərisindən keçir.

Qum şəhəri Tehran vilayətinin (ostanının) cənubundadır. Qədim Qum şəhərinin əhalisi 180 min nəfərə çatır. Burada toxuculuqla tütün sənayeləri inkişaf etmişdir. Bundan başqa xalçaçılıqla gön-dəri ticarəti də geniş şöhrət tapmışdır.

Şəhərdə XIII-XVI əsrlərdən qalma məscid-memarlıq abidələri vardır. Qum şəhəri, Sasani hökmdarı I Qubad tərəfindən 496-cı ildə salınmışdır.

Bura VIII əsrin ikinci yarısında (Abbasilərin dövründə) inkişaf edərək məşhurlaşmışdır.

Qum şəhərində şiə müsəlmanlarının imamı Hz. Musa Kazımın qızı Fatimənin qəbir üstü rövzəsi vardır ki, ora "Məsumeyi- Qum" da deyirlər.

Qum şəhəri qədim mədəniyyət və elm mərkəzidir. Əhalisi əsasən farslardan ibarətdir. Şəhərdə 3-5 mərtəbəli evlər tikilmişdir. Buranın əhalisi velosiped və balaca motorellərdən minik vasitəsi kimi istifadə edir. Şəhərin şimal hissəsində təyyarə limanı vardır. Burada orta savad verən din məktəbi fəaliyyət göstərir.

Müsəlman ölkələrindən oraya həmin məktəbdə oxumaq üçün tələbələr gəlir. Qum şəhərində Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Burada hər il minlərcə Azərbaycan əlifbası ilə kitablar nəşr olunur...

Maşınlarımız Qum şəhərinə çatanda uzaqdan bizi, qızılı minarəli "Məsumeyi- Qum" məscidi heyran etdi. Avtobuslar gəlib məscidin yaxınlığında dayandılar. Ətrafda yüzlərcə turist avtobusları dayanmışdır. Maşınlardan düşüb peyqəmbərə salavat çevirərək və məscidə doğru irəlilədik. Məscidin həyəti izdihamlı idi.

Bizimlə gedən möminlər dəstəmaz alıb, ayaqqabılarımızı məscidin girəcəyində saxlama yerinə verərək içəri girdik.

Məscidin içərisində İmam Musa Kazımın qızı Fatimənin rövzəsinə yaxınlaşdıq. Rövzə qızılı və gümüşü şəbəkələrlə əhatələnmişdir.

Xanım Fatimə Hz. Riza (r.ə.)-ın bacısı olmuşdur. Məsciddə iki rükət ehtiramla, ziyarət namazları qıldıq və Allahı zikr edib dua oxuduq.

Məscidin həyətindəki sərin sulardan içib həyəti gəzdik. Burada kitab satışı köşkləri də var idi. Fotoaparatı işə salıb məscidin sonunda xatirə şəkilləri çəkdim.

Burada istirahət edib və axşam saat 1900-da maşınlara minərək yola düzəldik. Avtobuslar şəhərdən çıxıb şımal istiqamətində hərəkət etməyə başladılar. İstinin təsirindən və yorğunluqdan adamlar oturduqları yerdə mürgüləyirdilər. Bu minvalla

təxminən 150 km. yol qət etdik. Maşınlar yol ayrıclarında dayanaraq yanacaq götürüb, sürücülər də bir-birlərini əvəz edirdilər. Avtobuslar hər dəfə 150-200 litr benzin dolduraraq yollarına davam edirdilər.

Axşam saat 2100-da uzaqdan İran İslam Resrublikasının paytaxtı Tehran şəhərinin işıqları görünməyə başladı. Şəhərə 20 km. qalmış sağ tərəfdə qaranlıq fonda, göydən sanki asılı qalmış yaşıl rəngdə dörd minarəli və kümbəzi narıncı rənglə işıqlandırılmış məscid görsəndi. Həmin məsciddə İran İslam Respublikasının qurucusu mərhum Hz. Xomeyni (r.ə.)-ın rövzəsi yerləşir.

Biz maşınlardan yerə endik. Burada gecə olmasına baxmayaraq turist avtobusları ilə adamlar daha çox idi.

Tehran şəhəri İranın qərb hissəsində yerləşir. Ətrafda dekorativ ağac və gülkarlıqlar əkilmişdir. Möhtəşəm arxitektura ilə tikilmiş məscid binasının içərisində Ali Ruhani başçısı Hz. Xomeyni (r.ə.)-ın məzarı vardır. Dəstəmizdəki adamlar məscidə tərəf getməyə başladı. Orada dəstəmaz alıb, ayaqqabıları saxlama yerimə verib və içəri keçmək istədik. Məscidin giriş qapılarında içəri keçənlərin üst geyimlərini yoxlayan polis məmurları durmuşdur. Onların yoxlanışından sonra məscidin əsas və işıqlı salonuna daxil olduq. Döşəmə yaşıl rəngli mərmər plitələrlə örtülmüşdür. Ortada Hz. Xomeyni (r.ə.)-ın gümüşü şəbəkəli məzarı dururdu. Məzarın aşağa hissəsində təzə vəfat etmiş mərhumun oğlunun da məzarı var idi.

Adamlar rövzənin üzərində qalın şüşə ilə örtülmüş məzarın üstündə 25 sm. enindəki aralıqdan müxtəlif pul nəzirlərini içəriyə salırdılar. Məscidin arxa girəcəyində Xomeyni ilə oğlunun portretləri asılmışdır.

Yaşıl mərmər döşəmə üzərində kiçik yaşlı uşaqlar bir-birləri ilə oynayırdılar. Heç kəs onlara mane olmurdu. Biz məsciddən çıxıb və həyətindəki çəmənlikdə şam yeməyi yedik. Oradakı sərin sudan içib, ətrafı gəzdik. Maraqlıdır ki çəmənlikdə bütöv bir əhali ailəliklə oturub şam edirdilər.

Tehran - İran İslam Respublikasının paytaxt şəhəridir. Şəhər Tehran vilayətinin (ostanının) mərkəzində yerləşərək, bütün nəqliyyat növləri gəlib burada birləşir.

Tehran şəhəri Dəmavənd dağının cənub ətəklərində okean səviyyəsindən 1100 m. yüksəklikdədir. Ərazinin iqlimi subtropik kontinental, orta illik temperatur qışda _ 2° C, yayda +29° C-dir. Burada illik yağıntının miqdarı 240 mm düşür.

Şəhərin sahəsi 250 km^2, əhalisi isə 7 milyon (1982-ci ilin st. məlumatı) nəfərə çatır.

Hökumətin idarəçiliyi, dövlət Ali Dini Şura tərəfindən icra olunur.

Tehran qədim şəhər olaraq bizim eranın 9-cu əsrində Rey şəhəri yaxınlığında salınmış və 1785-ci ildən İranın paytaxtı olmuşdur. Qədim Rey şəhəri, XIII əsrdə monqol qoşunları tərəfindən dağıdılmışdır.

1943-cü ildə Tehranda SSRİ, ABŞ və İngiltərə hökumətlərinin faşist Almaniyasına qarşı konfras keçirilmişdir.

1979-cu ilin 12 fevral (22 Bəhmən) tarixindən Tehranda xalq inqilabı nəticəsində, Məhəmməd Riza Pəhləvinin şah rejiminə son qoyulmuşdur. Şəhərdə maşınqayırma və metal emalı zavodları, kimya, neft emalı və başqa sənaye sahələri inkişaf etdirilmişdir.

Tehranda qədim memarlıq abidələrindən "Gülüstan" sarayı, Sinəhsalar və Şah məscidi tikililəri də vardır.

1971-ci ildə İranın 2500 illik yubiley tədbirləri keçirilmiş, Bakıdan da Tehrana nümayəndələr dəvət olunmuşlar (bax, M. İvanov "Oçerk istorii İrana" (rusca), Moskva-1952, "ASE"10 cilddə,(IV-IX cildlər), Bakı-1980-86.)

Tehran şəhərində 3 beynəlxalq hava limanları fəaliyyət göstərir. Şəhərdə muzeylər, kitabxanalar, mədəniyyət mərkəzləri, istirahət parkları, teatr və kinoteatrlar, universitet və kolleclər, orta məktəb və mədrəsələr, məscid və tarixi arxeoloji abidələr və s. vardır.

Tehranda radio-televiziya şirkətləri, kütləvi mətbuat birlikləri fəaliyyət göstərərək dünyanın bir çox dillərində tele-radio verilişləri, qəzet və jurnallar, habelə bədii – elmi kitablar dünya ictimaiyyətinə çatdırılır.

Tehran şəhərinin ümumi əhalisi savadlıdır. Məktəblərdə fars dili ilə yanaşı fransız,ingilis və alman (tək-tək məktəblərdə rus və erməni) dilləri tədris olunur.

Tehran əhalisi mədəni və xoş xasiyyətlidir. Qadınların əksəriyyəti ziyalılardan ibarətdir. Əhali İslam dini əsasları ilə tərbiyələnərək, İslam idealogiyası təbliğ olunur.

Tehran şəhərində dünyanın bir çox ölkələrinin səfir və nümayəndəlikləri (təkcə ABŞ-dan başqa) fəaliyyətdədir. İlk dəfə 1971-ci ildən Bakı şəhərində İran dövlətinin səfirliyi yaradılmışdır. Haliyyədə 1993-cü ildən Azərbaycan Respublikasının səfirliyi Təbriz şəhərində fəaliyyət göstərir...

Bizi aparan avtobuslar gecə saat 1200-də Tehrandan yola düşdü. Adamlar yorulduğundan avtobusda oturduğu yerlərində mürgüləyib yatdılar. Gecə olmasına baxmayaraq hava isti idi.

Maşınlarımız Germasar dəmir yolu stansiyasındakı yol ayrıcından keçərək şimal-şərqə tərəf Dəsti-Kəbir səhrasındakı asfalt yol ilə yüksək sürətlə (80-100 km/saat) Xorasan səmtinə şütüyürdü.

10 avqust 1995-ci il (Cümə axşamı).

Avtobuslar səhər saat 400-də Damqan şəhərinə çatdılar.

Damqan əhalisi əsasən farslardan olub, kiçik şəhərdir. Ərazi okean səviyyəsindən 1000 m. yüksəklikdə Böyük Duzlu-Kəbir səhrasındadır. Şəhərin küçələri yöndəmsiz və dardır. Buradakı yaşayış binaları 4-5 mərtəbəlidir.

Maşınlarımız şəhərin mərkəzindəki Əbülfəzl - Əbbas məscidinin qarşısında dayandı. Möminlər sübh namazı qılmaq üçün məscidə girdilər. Məscid iki mərtəbəli tikilmişdir. Binanın birinci mərtəbəsində təsərrüfat və yardımçı otaqlar yerləşirdi. Dəstəmaz alaraq pillələrlə ikinci mərtəbədəki geniş salona qalxdıq. Orada İki rükət müstəhəb və iki rükət də vacib namazlar qıldıq. Məsciddə ibadəti qurtarıb həyətə çıxdıqda, artıq sübhdən dükan sahibləri yuxudan durmuşlar. Onların əksəriyyəti dükanlarında gecələyənlər idi. Dükanlarda cənubdan gətirilmiş sitrus meyvələri çox idi. Küçələrlə dükanlar elektrik lampaları ilə işıqlandırılmışdır. Dükancılar fars dilli olduqlarından bizimlə alver edə bilmirdilər. Onsuz da dükandakı bütün mallar Tehrandakından ikiqat baha satılırdı. Odur ki, adamlarımız tezliklə maşınlara minməli oldular.

Səhər saat 600-da avtobuslar Şahrud şəhərinə gəlib çatdı. Bura Damqan şəhərindən böyük idi. Şəhərin əhalisi xalis farslardan ibarətdir. Maşınlardan düşüb səhər yeməyi yedik. Yeməkxanada qiymətlər baha olduğundan, səhər yeməyi adam başına 3.000 tümənə başa gəldi. Allah axırını yaxşı etsin! Amin!

Uzaqdan 3.892 m. ucalıqda başı qarlı Şahvar dağı şəhərə gözəllik verirdi.

Saat 845 -də azacıq istirahət etdikdən sonra maşınlara minib yola çıxdıq. Təxminən bir saatdan sonra gözəl havası olan bir yerə gəlib çatdıq. Bura qədim Meyamey ilə İbrahimabad kəndlərinin arasındakı kəhriz suyu çıxan bir yerdir.

Adamlarımız tələsik maşınlardan düşərək, iydə ağacları kölgəsində sərin sudan içərək istirahət etdilər. Ərazi okean səviyyəsindən 1.600 m. yüksəklikdə, sağ tərəfdən dağlarla

əhatə olunmuş düzənlikdən ibarətdir. Biz, hündürlüyü 2.887 m. olan Cudankux dağlarının şımal hissəsində idik. Yaxınlıqdakı düzənlikdə təyyarə meydanı görsənirdi.

Saat 1000-da maşınlara minib şımal-şərq istiqamətində asfalt yol ilə hərəkətə başladıq. Yolumuz hər an istiləşirdi. Ətrafda duzlaşmış torpaqları olan Kəbir səhrası görsənirdi. Ərazidə yeganə Qalmuraddır çayı vardır ki, suyunda balıq olmur...

Saat 1210 –da Səbzəvar şəhərinə gəlib çatdıq. Bura çox da böyük şəhər deyil. Şəhərdə qədimdən qalma adi formalı gil-palçıqdan tikilmiş üstü şifersiz evlər vardır. Səbzəvarlılar qədim fars tayfalarından ibarətdir. Əhalinin yaşayış tərzindən olduqca kasıb görsənirdilər. Müasir inkişafdan səbzavarlılar geri qalmış sakit xasiyyət insanlardır. Şəhərin yaxınlığında kiçik təyyarələr üçün uçuş meydanı görsənirdi. Maşınlarımız kiçik "iki mərtəbəli" yeməkxananın qarşısında dayandılar. Adamlar maşınlardan düşüb, birinci mərtəbəsi olan zirzəmidə dəstəmaz alaraq namaz qılındı. Ikinci mərtəbədə artıq nahar yeməyinə oturulmuşdur. Yeməkxanada sərin buzlu su pulsuz olsa da, yeməklər keyfiyyətsiz və olduqca baha idi.

Şəhərdə tək-tük ağac olduğundan kölgədə hərarət +40° C -dən yuxarı idi.

Günorta saat 1330 -da maşınlara minib və uca səslə "Allah kömək olsun!" deyərək yolumuza davam etdik. Maraqlı idi ki, yollarda yolçuların xidmətində telefonla danışmaq üçün avtomat telefon köşkləri qoyulmuşdur. Artıq bizim maşınlar İranın Xorasan vilayətində idi.

Axşam saat 1630 -da maşınlarımız gəlib Xorasan vilayətinin Məşhəd şəhərinə çatdı. Uzaqdan şəhərin uca binaları görünməyə başladı. Yollarda həmişə yaşıl dekorativ ağaclar əkilmişdir. Möminlər sevinərək uca səslə Peyqəmbərə salavat duasını dedilər...

Bizi aparan avtobuslar şəhərə gedən düz yoldan sağa tərəf döndülər. Maşınlarımız bizi çılpaq dağlara tərəf aparırdı. Nəhayət ki, avtobuslar dayandılar. Bizə maşınlardan düşüb piyada getməyimizi bildirdilər.

Adamlar üzyuxarı axınla dağlara tərəf gedirdilər. Biz də adam axınına qoşulub və onlarla bərabər getdik. Ətrafdakı çılpaq qayalarla dağdakı mağara, Naxçıvandakı "Əshabi-kəhf" mağarasını xatırladırdı. Dağlara çatanda mağara qarşısındakı kərpicdən tikilmiş məscid binasını gördük. Orada Hz. İmam Riza (r.ə.)-in əshabəsi (silahdaşı) Hz. Abasət (r.ə.)-in dostu şəhid Hacı Muradın qəbiri vardır. Möminlər məsciddə müstəhab namazlar qılaraq rövzəni ziyarət etdilər. Məsciddə dəstəmaz almaq üçün təmiz su şəraiti anti sanitar vəziyyətdə idi. Möminlər əlacsızlıqdan lilli suyu olan hovuzdan istifadə edirdilər. Buna

baxmayaraq məsciddə mömin ziyarətçilər üçün hər şərait yaradılmışdır. Məscidin yaxınlığında yeməkxana, müxtəlif dükan-köşklər, foto şəkil çəkdirmək üçün təcili xidmətlər də var idi. Bizə Şəhid Hacı Muradın rövzəsində tarixi məlumat verən olmadı. Buna baxmayaraq oradakı Aşqabadlı turistlərin rusca danışan bələdçisinin sözlərindən məlum oldu ki, əslən Ordubadlı olmuş Hacı Murad, iamın əshabəsi Abasətin qulluqçusudur. Hacı Murad, imamı Məşhəddə (qədim Tus şəhərində) farslar zəhərləmək istərkən bilərək Abasətə xəbər aparmış. Bundan sonra o, atına minib şəhərə qayıdanda, dalına düşüb tutmaq istəmişlər. Hacı Murad bir müddət həmin mağarada gizlənsə də tutularaq vəhşiliklə doğramışlar.

Sonradan Hacı Muradın öldürüldüyü yer (qəbir) xalq tərəfindən ziyarətgaha çevrilmişdir. Haliyyədə Hacı Muradın rövzəsi İslam şəhidi kimi Məşhəddə ziyarət yerlərindən biridir.

Axşam saat 1800 -də gəldiyimiz maşınlara mindik. Avtobuslar şəhərə yaxın qəbiristanlığın yaxınlığındakı köhnə məscid binasının qarşısında dayandı. Burada da çoxlu maşın və ziyarətçilər var idi.

Biz maşınlardan düşüb və həmin məscidin həyətinə girdik. Orada böyük bir tikili vardır ki, içərisindəki şəhid Abasətin məzarıdır. Möminlər məsciddə müstəhab namazlar qıldılar. Məscidin həyətində döşəmədə üstü yazılı mərmər lövhələrdə ərəbcə dini ayinlər yazılmışdır ki, adamlar üstünü ayaqlayıb keçirdilər. Məscidin həyətini gəzənlər bir-birləri ilə farsca danışırdılar.

Ətrafdakı dükan-köşklərin satıcıları cavan oğlanlar idi. Oradakı suvenir və hədiyyələrin qiymətləri çox ucuz idi...

Axşam saat 1900 –da maşınlara minib və Məşhəd şəhərinə tərəf hərəkət etdik. Məşhəd (Tus) şəhəri qədimdir. Buranın havası çox da təmiz deyil. Külək əsəndə hava tozlu olduğundan ağızda dişlərin arasında qum tozu dolaraq xırçıldayır.

Məşhəd şəhəri də Qum şəhəri əhalisi kimi əsasən moto-velosipedlərdə gəzməyi xoşlayırlar. Şəhərdə qadınlar kişilərə nisbətən az olurlar. Əhalinin əksəriyyəti cavan yaşdadır.

Maşınlar bizi gətirib şəhərdəki “Miladi” hotelinin qarşısında saxladı. Bura mehmanxanadan fərqli olaraq daha çox köhnə karvansara binasına oxşayırdı. Həmin binanın zirzəmisi əvvəllər karvansara olmuş sonradan üstündə beş mərtəbəli alçaq və yöndəmsiz otaqlar tikmişlər.

Axşam saat 2200 -də həmin mehmanxanada yerləşdik. Dəhliz və otaqlar çirkli və səliqəsiz vəziyyətdə idi. Adamlar içəridəki natəmizliyi gördükdə burada qalmaqdan imtina etdilər.

Bələdçimizlə mehmanxana sahibi arasında danışıqlardan məlum oldu ki, şəhərdəki digər mehmanxanalarda da boş yerlər tutulmuşdur. Bütün bunlara səbəb isə, Hz. Məhəmməd (s.ə.s.) peyqəmbərin doğum günü ilə əlaqədar ətraf müsəlman ölkələrindən turist-zəvvarların gəlməsidir. Uzun sürən danışıqlardan sonra adamlar əlacsızlıqdan burada qalmağa razılaşdılar.

Mən Güznüt kəndindən olan Adil, Bayraməli və Bənəniyarlı Xeybərlə birlikdə, mehmanxananın ikinci mərtəbəsində 308-ci otaqda yerləşdik. Axşam namazının vaxtı keçsə də, dəstəmaz alıb və ibadətlərimizi yerinə yetirdik. Bələdçimiz bir-bir otaqları gəzib və hər birimizə mehmanxananın ünvanı yazılmış vizit vərəqələrini payladı.

Gecə saat 2400-də otaq yoldaşlarımla bərabər yaxınlıqda görsənən Hz. İmam Riza (r.ə.) rövzəsi olan məscidə getdik. Məscidin həyətinə girmək üçün nəzarət buraxılış məntəqəsindən keçmək lazım idi. Orada kişi və qadınların əl ilə geyimlərini yoxlayıb həyətə buraxırdılar. Yalnız təsbihdən başqa digər şəxsi əşyalarla həyətə keçmək qadağan idi. Həmin yerdən qayıdanda isə yoxlanılmadan çıxmaq olurdu.

Məscidin həyətində minlərcə zəvvar gəzinirdi. Uca məscidin kümbəzi qızılı təbəqə ilə örtülmüşdür.

Məscidin içərisinə girmək üçün ayaqqabılarımızı saxlama yerinə verib və Allaha dua etdik. Orada müstəhəb ehtiram və ziyarət namazları qıldıq. Məsciddəki Hz. İmam Riza (r.ə.)-ın qəbirini ziyarət etdik. Mərhumun ruhuna Qurandan ayələr oxuyub və Allahdan rəhmət duası dedik.

İmamın qəbirinin ətrafı uca gümüşü şəbəkə ilə örtülmüşdür. Nəzir gətirənlər şəbəkənin aralarından üçəriyə pul və qiymətli ziynət əşyaları salırdılar. İçəridə iki nəfər xidmətçi pul və əşyaları kürəkləyib çuvallara yığaraq, ağzını da möhürləyirdilər...

Biz məscidin həyətinə çıxaraq ətrafı gəzməyə başladıq. Həyətdəki xüsusi fotorele qurğulu “müqəddəs bulaq” dan sərin su içdik. Qurğudakı zəncirli parçları kranının altına tutanda, su gəlir və kənara çəkməklə isə kəsilirdi.

Məscidin həyəti gur işıqlı lüminesen elektrik lampaları ilə bəzədilmişdir. Hər yer gündüz kimi işıqlı idi. Biz gecə saat 0145 -də oradan birbaşa mehmanxanaya qayıtdıq.

11 avqust 1995-ci il (Cümə).

Gecə saat 0200 -də otağımızda yeməkdən sonra çay içib və yerimizə girib mürgülədik...

Səhər saat 0500 -də yataqdan qalxıb və otaq yoldaşlarımı da oyatdım. Yuyunaraq dəstəmaz aldıq və tələsik məscidə getdik. Orada ziyarət və ehtiram müstəhab, əzandan sonra isə vacib sübh namazlarını qıldıq...

Hz. İmam Riza (r.ə.) məscidi üç böyük salondan ibarətdir. Həmin salonlardan biri ortadan qara pərdə ilə ayrılaraq qadın və kişilərin ibadəti üçündür. Yaşıl rəngli mərmər döşəmə xalılarla örtülüdür. Divarla sütunlar boz mərmərlə üzlənərək, yuxarıdan divarlarda Quran ayələri ilə bəzənmişdir.

Bütün otaqlarda yuxarıdan nəzarətçi kameraları quraşdırılmışdır. Hər yerdə “foto şəkil çəkmək qadağandır” simvolik işarələri göstərilmişdir.

Məscidin künbəzinin içərisi həndəsi ornamentlərlə bəzədilərək, üzəri aynalı kərpiclərlə hörülmüşdür. İçəridəki elektrik lampaları görsənməyən yerlərdə quraşdırılaraq, işıq seli sanki “billur sarayı” xatırladır. Künbəzin ortasından diametri 7-8 metrə çatan billur (şüşəli) çilçıraq asılmışdır.

Divarlarda hava dəyişən qurğularla səsucaldan dinamiklər quraşdırılmışdır. Məsciddəki imamın qəbiri əsas künbəzin şimal-şərq hissəsində idi. Divar boyu hər yerdə möhür yerləri ilə, mütaliə üçün rəflərdə dini kitablar qoyulmuşdur.

Məscidin giriş yerində içəridən pul nəziri verənlər üçün xüsusi xəzinədar, sutka ərzində fəaliyyət göstərərək üstü möhürlü qəbz kağızları verir. Mən nəvələrimə niyyət etdiyim nəzirlə qızımın da verdiyi pulları, xəzinədara verib qəbzlərini aldım.

Bundan sonra otaq yoldaşımla məscidin həyətinə çıxıb və orada sərin su içərək güllərə də su səpdik.

Səhər saat 800 -də otaq yoldaşlarımla mehmanxanaya qayıtdıq. Səhər yeməyini yedikdən sonra, şəhərə gəzməyə çıxdıq. Şəhərin küçələrində yan-yana düzülmüş müxtəlif dükanlar, dini suvenir satan köşklər, foto atelyələr və başqa xidmət köşkləri vardır. Mən fotoatelyələrdən birində ayqüstə imamım rövzəsi çəkilmiş fonda durub şəklimi çəkdirdim. Şəhəri gəzə-gəzə özümüzə lazım olan şeyləri aldıqdan sonra mehmanxanaya qayıtdıq.

Günorta saat 1230 -da yenidən məscidə getdik. Məscidin həyətində dəstəmaz alıb, Cümə namazına hazırlaşdıq.

Məscidin həyəti adamla dolu idi. Biz namaza durmaq üçün ikinci həyətin şərq hissəsində axır ki, boş yer tapdıq. Minarədən səsucaldan dinamiklərlə əzan verildi. Adamlar ayağa qalxaraq cərgələrdə dayandılar. Sağımda Güznütlü Adil, solumda isə tanımadığım qara dərili ərəb durmuşdur.

Zöhrlə Əsr vacib namazlarını qıldıqdan sonra, dua oxuyub və Allahı təsbihlə zikr elədik (Təsbihdəki 99 ədəd "muncuğu", 33 dəfə "Allahu əkbər", 33 dəfə "Sübhən Allah" və 33 dəfə də "Əlhəmdu Lillah" deməklə Hz. Məhəmməd (s.ə.s.) peyqəmbərə salavat (salam) verilir. Daha sonra bir-birimizlə əl verib görüşərək, "Allah qəbul eləsin! Amin!" duası deyilir).

Namazdan sonra məscidin ikinci həyətini gəzməyə başladıq. Meydanda dəqiq vaxtı bildirən qədimdən qalma günəş saatı qoyulmuşdur. Həmin saat, yerdən 1 metr ucalıqda dörd ədəd daş lövhənin ortasında qoyulmuş, hündürlüyü 50 sm. olan üçbucaq formalı şaxsdan ibarət idi. Şaxsın ətrafı göydəki ulduz bürclərinin rəmzi fiqurları 12 bərabər yerə bölünmüşdür. Günəş şaxsa düşməklə, kölgəsinin istiqaməti dəqiq vaxtı bildirirdi. Həyətdə qoyulmuş "Qardaşlıq" adlanan fotorele ilə işləyən avtomat bulağın suyundan içdik. Biz məsciddən birbaşa mehmanxanaya gəldik və sonra şəhəri gəzməyə çıxdıq.

Məşhəd şəhəri İranın şimal-şərqində, Xorasan vilayətinin (ostanının) ərazisindədir. Şəhər suyu quruyan Kəşəfrud çayının dərəsində yerləşir. Bura Tehrandan dəmir yolu, avto yolu və təyyarə ilə də gəlmək olar. Şəhərdə 670 mindən artıq (1997-ci ilin st. məlumatı) fars, əfqan və taciklərdən ibarət əhali yaşayır. Qədim Tus şəhərinin yerində 9-cu əsrdə Sənabad kəndi olmuşdur. 14-cü əsrin axırlarında Tus, Xorasanın inkişaf etmiş şəhəri idi. 1736-47 ci illərdə Tus şəhəri, Nadir şah Əfşarın hakimiyyəti ilə İranın paytaxtı olmuşdur. 1795- ci ildən Şəhər Ağaməhəmməd Qacar şah tərəfindən ələ keçirilib və qədim Tus şəhərinin adı dəyişdirilərək Məşhəd qoyulmuşdur. Şah Qacar Məşhəddəki qəbirləri "müqəddəsləşdirməklə" buranı "ikinci Məkkə"yə çevirmişdir.

Müasir Məşhəd şəhəri dünya şiə təriqətində olan müsəlmanların turist-ziyarət mərkəzidir. Burada metal emalı, toxuculuq, gön-dəri məmulatları, tikinti materalları və başqa sənaye sahələri inkişaf etmişdir. Bundan başqa şəhərdə kustar yolla xalcacılıq və firuzə daş-qaş emalı müəssisələridə vardır. Məşhəddə yüz min nüxsədən artıq dini kitablarla zəngin olan kitabxana olaraq ilahiyyat elmləri üzrə tədris mərkəzi fəaliyyətdədir.

Məşhəd şəhərinin şimal-şərq hissəsində Hz. İmam Riza (r.ə.)-ın qəbiri yerləşən məscid ətrafında "müqəddəs" məhəllə vardır. Məhəllədə eyvanlı həyətlər, 5 mədrəsə, 2 karvansara, Gövhərşad məscidi, Şah məscidi, Nadir şah Əfşarın məqbərəsi ilə at üstündə tuncdan tökülmüş heykəli (heykəltaraş Ə. Sadiqidir) vardır.

Məşhəddən aralı qədim Tus şəhəri xarabalığında məşhur fars şairi Firdovsinin qəbiri ilə 10-cu əsrdən qalma daş körpü memarlıq abidələri də qalmaqdadır (bax, "ASE", 10 cilddə (VI cild), Bakı-1982, s.547).

Məşhədin əhalisi əsasən ticarətlə məşğul olurlar. Şəhərdə köhnədən qalma məhəllələrdəki küçələr, ensiz və labirintvaridir. Nabələd adamlar həmin küşələrdə tez-tez azırlar. Küçələrdəki dükan sahibləri farsdilli olduğundan alverdə çətinlik olur. Yerli əhali əsasən velo-moterellərdən nəqliyyat kimi istifadə etsələr də, taksi xidmətində olan minik maşınlarına da rast gəlinir.

Axşam saat 1930-da Hz. İmam Riza (r.ə.)-ın məscidinə getdik. Orada dəstəmaz alıb və namazlarımızı qıldıq. İbadətdən sonra həyətdəki göyərçinlərə pul ilə dən alıb onları yemlədik. İstədik oradakı kitabxana ilə muzeyə də baxaq, lakin hər ikisinin axşam saat altıdan sonra işləmədiyini gördük. Məscidin minarəsindən əzan səsini eşitcək, şam və xüftən vacib axşam namazlarını da həyətdə qıldıq. Namaz vaxtı ziyarətçilərin axını çox olduğundan, adamlar qarşımızdakı möhürləri saymazlıqla ayaqlayıb keçirdilər. Bəziləri buna məhəl qoymadan üzrhaxlıq da istəmirdilər. İbadətdən sonra məscidin həyətində gəzinməyə başladıq.

Axşam saat 2130-da məsciddən mehmanxanaya getdik. Orada şam yeməyindən sonra otaqda mömin ziyarətçilərlə söhbət edib və istirahət etdik.

12 avqust 1995-ci il (Şənbə).

Sübhdən durub saat 400-də dəstəmaz alıb Hz. imam Riza (r.ə.)-ın məscidinə getdik. Orada imamın rövzəsini bir daha ziyarət edib, əzan vaxtı vacib sübh namazını qıldıq. Sonra həyətə cıxıb "müqəddəs" sulardan içdik və gülləri suladıq. Məscidin darvaza qapısından çıxanda Hz. Məhəmməd (s.ə.s.) peyqəmbərə salavat dedikdə, rəhmətlik atam yadıma düşdü. O, bir vaxtlar Məşhəd ziyarəti həvəsi ilə Allahdan yardım istəmişdir. Lakin Sovet dövlətinin ateist qadağaları nəticəsində atamın Məşhədə getməsi mümkün olmadı...

Gözlərim yaşardı, sanki qarşımda dayanmış və mənə xoş baxışlarla baxan atamla vidalaşırdım. Allaha təvəkkül deyərək, mərhum atamın ruhuna dua oxuyaraq rəhmət

dilədim. Qoy, atamın ruhu şad olsun! Amin!

Otaq yoldaşım Adil ilə məsciddən birbaşa mehmanxanaya gəldim. Orada səhər yeməyinindən sonra çay içdik. Mehmanxananın ikinci mərtəbəsində zəvvarlar üçün, lazım olan xidmət otaqları da var idi. Burada əl-üz yuyulan otaq, tualetlər, mətbəx, yeməkxana, bufet-çayxana, xüsusi istirahət otağı, kürsü və mütəkkələr, sulu qəlyanlar və sairə mehmanxanadakıların xidmətində idi.

Mehmanxanada səhər yeməyinə kərə yağı, bişirilmiş və çiy toyuq yumurtası, ağ çörəklə təndir lavaşı, doğranmış kəllə qəndlə pürrəngi çay verilirdi. Bütün bunların hamısının pulu 350-450 tümənə başa gəlirdi. Bu isə mehmanxanada qalanları qane edirdi.

Səhər yeməyindən sonra otaq yoldaşım Adil ilə şəhərə gəzməyə çıxdıq. Mən dünənki çəkdirdiyim foto şəklimi alıb, dükanlardan da lazım olan şeylər aldım.

Saat 1200-də mehmanxanaya qayıtdıq. Orada elan etdilər ki, məscidin dəftərxanasına getməliyik. Hamımız birlikdə məscidin dəftərxanasına yollandıq. Orada bizə "Məşhədi" dini titulu olan möhürlənmiş şəhadətnamələr verdilər. Möminlər bir-birlərini təbrik etdilər. Daha sonra hər nəfərə ayrıca məscidin yeməkxanasına girmək üçün icazə kağızları da paylanıldı. Bu gün bizi məsciddəki imam ehsanına dəvət etmişlər. Məscidin qərb hissəsindəki iki mərtəbəli böyük salonu olan ümumi yeməkxanaya getdik. Qapıda dayanmış nəzarətçilər, icazə kağızlarımızı alıb içəri buraxdılar. Orada bizdən əvvəlki adamlar artıq yeməklərini yeyib gedirdilər. Oturaq yerləri boşaldıqca stollarda dörd-dörd oturduq. Xidmətçilər stolların üstünü təmizləyib, hər nəfərə ayrıca iri çini boşqablarda yeməklər qoydular. Boşqablarda toyuq əti ilə bişirilmiş plov, çörək və tərəvəzli salat yeməkləri verildi.

"Bismillah" deyərək imam ehsanından doyunca yedik, sərin su içərək "Əlhəmdu Lillah"deməklə verilmiş ehsanın Allah dərgahında qəbul olmasına dualadıq. Allah qəbul eləsin! Amin!

Yeməkxanadan çıxıb həyətdə dəstəmaz aldıqdan sonra məscidə girdik. Əzan deyildi, cərgələrdə duraraq günortanın "Zöhr" və "Əsr" namazlarını qıldıq. Ziyarətimizin sonuncu günü olduğundan, Hz. İmam Riza (r.ə.)-ın rövzəsini bir daha təvaf etdik və Allahdan mərhuma rəhmət dilədik. Allaha şükr edə-edə məsciddən həyətə çıxdıq və orada mehmanxanaya gəldik.

Axşam saat 1600-da özümüzə məxsus şeylərimizi götürüb və mehmanxananın qarşısında dayanmış maşınlara mindik. Avtobusda hər kəs əvvəlki yerində oturub və "Allahu

Əkbər!” deyərək Məşhəd şəhəri ilə vidalaşdıq...

Axşam saat 1800-də Xorasan vilayətinin Qədimgah adlı kiçik bir yaşayış məntəqəsinə gəlib dayandıq. Bizə bildirdilər ki, burada Hz. İmam Riza (r.ə.)-ın yaşadığı evi ilə şəxsi əşyaları saxlanılan “ev-muzeyi” vardır. Maşınlardan düşərək, Qədimgahdakı imamın yaşadığı evi ilə tanış olduq. Oradakı kiçik bir evdə imamın şəxsi əşyaları olmuş qədim kitablar, yazı mizi ilə kətil, şamdanlar, yataq dəsti və sairə vardır. Maraqlı görünən bir daş parçası üzərindəki imamın qoşa ayaq izi idi. Həmin göyümtül rəngdə olan daş, qalınlığı 20 sm, böyüklüyü isə 80x60 sm ölçüsündədir. Daha maraqlı görünən isə daşdakı “ayaq izi”, müasir məhəng adamın rəddindən iki dəfə böyük olardı. Evin otaqlarından birində qədim kəhrizin şəffaf və sərin suyu axırdı. Biz ora qoyulmuş mis parç ilə kəhriz suyundan içib, ustasına (kənkana) Allahdan rəhmət duası oxuduq. Qədimgahda yol kənarında bir neçə kiçik dükanlar var idi ki, oradan çoxdan arzusnda olduğum “kəllə qənd”də aldım.

Adamlar maşınlara minərək gəldiyimiz yol ilə geri qayıtdıq. Axşam saat 2100-də avtobuslar gəlib Səbzəvara çatdılar. Burada axşam namazlarını qılıb, şam yeməyindən sonra çay içdik. Yeməklər əvvəlki kimi keyfiyyətsiz və baha idi. Bundan başqa xidmətçi satıcılar da, olduqca bədxasiyyət və mərhəmətsiz insanlardır...

Maşınlara oturub və Səbzavardan çıxaraq əsas yola düşdük. Gecə olduğundan maşındakı sərnişinlər elə oturduqları yerlərində mürgüləyərək yatdılar. Mən tez-tez pəncərədən baxıb qaranlıq səmadakı sıyrışan ulduzları seyr etdikcə, evimiz, ailə-uşaqlar, qohum-əqraba, qonşular və dostlarımı yada salırdım...

13 avqust 1995-ci il (Bazar).

Avtobuslar səhər saat 6 00 -da Damqana çatdılar. Buradakı məsciddə möminlər dəstəmaz alıb və vacib sübh namazını qıldılar. Səhər yeməyini tələsik yeyərək maşınlara əyləşdik. Avtobuslar əsas yol ilə cənub-qərb istiqamətində yüksək sürətlə asfaltda şütüyürdülər.

İki satdan sonra Semnan şəhərinin yanından keçdik. Sürücülər hər məntəqədə olduğu kimi, burada da sənədlərini yol polisində qeydiyyatdan keçirirdilər.

Saat 1130 -da İran İslam Respublikasının baş şəhəri olan Tehrana gəlib çatdıq. Tehran şəhəri qədim tikililərlə zəngindir. Şəhərdə orta əsrlərdən tikilmiş və dəfələrlə bərpa olunmuş məşhur Əbdüləzim məscidi vardır. Həmin məsciddə şiə müsəlmanlarının imamı Hz. Məhəmməd Təqi (r.ə.)-ın nəvəsi Həmzənin və Hz. İmam Səccad (r.ə.)-ın nəvəsi Tahirin də məzarları vardır.

Biz məscidə daxil olanda orada Quran oxunurdu. Məscid adamla dolu idi. İranın hər bir vilayətindən turist-ziyarətçilər gəlmişdilər. Onların əksəriyyəti məscidin həyətindəki çəmənlikdə oturub yemək yeyirdilər. Məsciddə müsafirlər üçün hər cürə rahat xidmət şəraiti yaradılmışdır.

Biz dəstəmaz alıb günorta namazına hazırlaşdıq. Məscidin döşəməsi rəngli mərmərlə örtülmüşdür. Əzan verilərək camaat cərgələrdə səf-səf durub və namaza başladılar. Qabaqda pişnamaz (imam cümə) durub, yanında ayaq üstə üzü adamlara tərəf durmuş 8-10 yaşlarında oğlan uşağı, təkbirləri ucadan təkrarlayırdı. Günortanın vacib namazlarını qıldıqdan sonra, oradakı qəbirləri ziyarət edib və məsciddən çıxdıq.

Mən yol yoldaşlarımla nahar yeməyinə getdik. Yeməkxana məscidin yaxınlığındakı üstü örtülü bazarda idi. Orada təzə kəsilmiş qoyun ətindən bişirilən dadlı riti-bozbaş xörəyindən doyunca yedik. Sonra pürrəngi ətirli çay içib və şəhəri gəzməyə çıxdıq. Sürücülər bizə bildirdilər ki, yola axşam üstü çıxacaqlar. Maşınlarımız hara isə getdilər, fotoaparatımda maşında qaldı...

Yol yoldaşım məşhədi Adillə bərabər yaxınlıqdakı kiçik bir dükana girdik. Satıcının bizimlə Azərbaycanca danışmasına təəccüb etdik. Düzü biz buna çox sevindik ki, Tehranda bizim dildə danışan insanlar da var. Müsahibimiz bizimlə mədəni tərzdə danışaraq özünü tanıtdı və hörmətlə çaya qonaq etdi. Təşəkürümüzü bildirərək onunla tanış olduq. İranlı gəncin adı Müvtəza Əhməd (Movteza Ahmadezadeh) idi.

Əhməd kicik dükanında məktəb və dəftərxana ləvazimatları satmaqla məşğul idi. Onunla yaxından tanış olaraq məlum oldu ki, Əhməd Azərbaycanın Beyləqan rayonu yaxınlığındakı İran kəndlərindəndir (Çox təəssüf ki, onun yaşadığı kəndin adını qeyd etməyi unutdum).

Əhməd Tehrandakı Universitetin Kənd Təsərrüfatı bölməsinin “Bitki mühafizəsi (mühəndisi)” fakültəsində qiyabiçi tələbədir. Tehranda dükan kiralayaraq alver edib və özünü dolandırır. O, bizə Tehrandakı ev ünvanını bildirib və evinə dəvət etmək istədi. Lakin Tehranda tezliklə getməyimizi deyərək etirazımızı bildirdikdə çox təəssüfləndi. Əhməd məşhədi Adilə kiçik bir Quran kitabını bağışladı. Mən isə ona təşəkkür edərək ondan heç bir hədiyyə qəbul etmədim. Əhməd elə bil ki ən yaxınlarını tapan adam kimi, bizimlə mehribancasına söhbət edirdi. Nəhayət ki, onunla sağollaşıb və şəhəri gəzməyə davam etdik.

Yaxınlıqdakı aptekə girdik ki, özüm üçün optik eynək alam. Satıcılar bizi mehribanlıqla qarşılayıb, farsca nə istədiyimizi soruşdular. Mən kağıza yazdığım mənə lazım olan

eynək şüşəsinin nömrəsini (şumərəsini) onlara göstərdikdə, Çin malı kimi baha olduğunu bildirdi (Həmin eynək şüşələri bizdəkindən on dəfə baha idi). Bundan sonra biz gəlib bazardan bir neçə suvenir aldım...

Axşam saat 1800-də avtobuslar gəldiyindən, maşınlara minərək yolumuza davam etdik. Tehranda bələdçi nümayəndəyə dedik ki, sürücülər bizi qayıdan baş Təbrizdə saxlasınlar. Orada Məhəmməd Şəhriyarın da məzarını ziyarət edək. Sürücülər əvvəl bu xahişə hirsləndilər, lakin bizim təkidimizi gördükdə oz aralarında nə isə danışıb və "razılıqlarını" bildirdlər...

Avtobuslar Tehrandan çıxıb və Təbriz şəhərinə tərəf hərəkət etdilər.

Axşam saat 2100 -də maşınlarımız Qəzvin şəhərinə gəlib çatdılar. Məscidin yanında maşınlardan düşüb, dəstəmaz alıb və vacib axşam namazlarını qıldıq. Bundan sonra şam yeyib, çay içdikdən sonra maşına minərək yolumuza davam etdik. Avtobusa minəndən sonra, hər kəs oturduğu yerində istər-istəməz dərin yuxuya getdi. Həmin yuxu mənə də zor gələrək, oturduğum yerdə yatdım. Beləliklə də sürücülər bu fürsətdən məharətlə istifadə edib və yollarını Təbrizdən kənar salmışlar...

14 avqust 1995-ci il (Bazar ertəsi).

Səhər saat 500 -də Avtobuslar Sofyana gəlib çatdılar. Maşınlardan düşüb dəstəmaz alıb vacib sübh namazını qıldıq. Tezliklə tələsik maşınlara minərək yola çıxdıq. Artıq bu vaxt adamlarımız anladılar ki, sürücülər bizə kələk gələrək bilərəkdən maşınlarını Təbrizə tərəf sürməmişlər. Hamılıqla pərişan olub və sürücüləri lənətlədilər...

Maşınlar saat 900 -da gəlib Mərənd şəhərinə çatdılar. Burada gedən baş minmiş sürücülərin arvad-uşaqları gətirdikləri ağır yüklə birlikdə yerə düşdülər.

Mərənd İranın şimal-qərbində, Cənubi Azərbaycanın qədim şəhərlərindəndir. Yunan coğrafiyaşünası Ptolomey Mərənd şəhərinin adını "Mandaqarna" kimi yazmışdır. Mərənd şəhəri orta əsrlərdə mühüm ticarət mərkəzi olmuşdur. 9-cu əsrdə Mərənd hakimi Əbu Bəis (əvvəllər Babəkin silahdaşı idi) ermənilərin əli ilə xürrəmilərin başçısı Babəkə xəyanət edib və qolubağlı ərəblərə vermişdir. Sonradan onun özü də ermənilər tərəfindən öldürülmüşdür.

Mərəndli inqilabçılar 1979-cu ildə şaha qarşı mübarizəyə qalxmışdılar. Mərənd Təbrizdən 60 km. şimal-qərbdə, Savalan dağının ətəyində, Culfa –Təbriz dəmir yolu üstündə və Təbriz-Xoy avto yolunun kənarındadır. Şəhərin əhalisi Azəri türkləri olaraq

76 min (1976-cı ilin st. məlumatı) nəfərdir. Şəhərdə əsasən xalçaçılıqla yeyinti sənayesi inkişaf etmişdir. Mərəndin ən qədim abidəsi XI-XII əsrdən qalmış Cümə məscididir. XIV-XVII əsrlərdə məscidə bitişik köməkçi otaqlar da tikilmişdir. Həmin məscidin mehrabını 1329-cu ildə nəqqaş-usta Nizam Bəndkir tərəfindən oyma sənətkarlığı ilə yaradılmışdır. (bax, "ASE", 10 cilddə, (VI cild), Bakı-1982, səh. 520)

Avtobuslar səhər saat 1000 –da bizi gətirib Culfa gömrükxanasının qarşısında saxladılar.

Mən Allaha şükr edib və sağ-salamat olmağıma dua etdim. Adamlar yerə düşdükdən dərhal sonra avtobuslar qayıdıb getdilər. Bizə bildirdilər ki, gömrükxanada keçid axşam saat 1600 -da başlanacaq. Axşama kimi oradan Mehri istiqamətində yalnız xususi avtobusda Ermənistana keçənlərin olacaq.

Səhər yeməyini Culfa gömrükxanası yaxınlığında yedik. Daha sonra yol yoldaşlarımla şəhəri gəzməyə getdik. Səhər olduğundan dükanlar bağlı idi.

Culfada kı istirahət parkında gəzərkən mənə iranlı "qohumumlarım"ın tapılması xəbərini dedilər. Təəccüb edərək bu işin sonu ilə maraqlandım. Yol yoldaşlarımdan birisi məni bir cavan oğlanın yanına apardılar. Həmin adam mənə Azərbaycan ləhcəsi ilə salam verib dedi:- "Siz, Naxçıvanlısınız?"

Dedim ki;- "Bəli, mən Naxçıvan şəhərindənəm."

Oğlan gülümsəyərək sul verdi:-"Bağışlayın, Siz Naxçıvanlı kəngərlilərindən rəhmətlik III Kalbalının qohumlarından sağ qalanını tanıyırsınızmı?"

Dedim ki;- "Ata babam rəhmətlik Hacı Məhəmməd onların qohumu olmuşdur."

Oğlan fərəhlə dedi:- "Mən də bəyin qohumlarındanam. Şura hökuməti otayda qurulanda rəhmətlik atamgil qorxudan Təbrizə köçmüşlər. Rəhmətlik deyərdi ki, Naxçıvandan Cəfərqulu xan oğlu III Kalbalını Təbrizə, Şeyx Xiyabanının yanına göndərmiş. Şeyx onu hərbi müşavir edərək qulluq sahibi etmişdir. Sonra (1934-cü ildə) erməni xainləri ağanı öldürmüşlər . Qəbri də Təbrizdəki fədai qəbristanlığındadır. Haliyyədə qardaşım, bacılarım və mən anamla birlikdə Təbrizdə yaşayırıq."

Qasım Qulami adlı gənc oğlan daha sonra əlavə edərək bildildi ki, Ələmdarda xüsusi evi var və Culfa gömrükxanasında işləyir. İranlı gənc, 35 yaşında, düz qamətli, qara saçlı və evlidir. Onunla birlikdə parkdakı "Qartal" heykəlinin qarşısında xatirə olaraq foto şəkil də çəkdirdik. Qasim, çox istədi ki, qalıb onun qonağı olam. Onunla çay içib, xeyli vaxt

söhbət etdik, sonra mənə ünvanını da verdi ki, sonra onlara qonaq gedəm. Daha sonra bizdən üzrxahlıq istəyən Qasim Qulami, gömrükxanaya işə tələsərək getdi...

Culfada gəzərkən təsadüfən qızımın qaynatası Sadıq Rəsul oğlu ilə rastlaşdım. Onunla görüşdükdən sonra mənin ziyarətimi təbrik edib bildirdi ki, səhər Naxçıvandan gəlmiş və axşam da qayıtmalıdır.

Axşam saat 1600 -da İran Culfasının gömrük-geydiyyat məntəqəsindən keçəndə əlimizdə apardığımız bağlamaları yoxlamadılar. Maraqlı o idi ki, gömrükxana məmurları mülki paltarda idilər. Onlar yalnız bizə "yaxşı yol" deməklə keçiddən yola salırdılar.

Artıq mən Allaha şükr edərək Araz çayı üzərindəki dəmir körpüdən Vətəndəki Culfa şəhərinə keçirdim. Körpünün üstünə ayaq basanda Arazın sərin mehi üzümə dəydi. Vətən, Ana torpaq, ailə-uşaqlar və dost-tanışları görmək həsrəti ilə körpünü addımladıqca Arazın sərin mehi məni salamlayırdı.

> *"Ya Allah Sənə şükürlər olsun!"-deyərək Culfa torpağına ayaq basdım.*
> *"Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk- şübhə (azğınlıq) salma! Bizə öyrətdiyindən bir mərhəmət bəxş et, çünki Sən, həqiqətən (nemət) bəxş edənsən!"*
>
> **(İmran ailəsi surəsi, 8)**

Culfa gömrükxanasından keçərək yola çıxdım. Artıq orada qudam Sadıq Rəsul oğlunun məni gözlədiyini gördüm. Mən Culfada bir daha Məşhədi yol yoldaşlarımla sağollaşaraq ayrıldım. Onları aparmağa ayrıca avtobuslar gəlmişdi...

Mənin Xorasandan Məşhəd ziyarətindən qayıtmağım xoş bir günə təsadüf etmişdi. İslam dininin banisi və bəşərin sonuncu peyqəmbəri Hz. Məhəmməd (s.ə.s.)-ın anadan olduğu mübarək mövlud günü idi.

> *"Ey insanlar! Peyqəmbər Rəbbinizdən sizə haqqı (Quranı) gətirdi. (Ona) iman gətirin! Bu sizin üçün xeyirli olar. Siz (onu) inkar etsəniz də, (bilin ki,) göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!"*
>
> **(Nisa surəsi, 170)**

Artıq Xorasana aparan yol, bir həftədən sonra məni qaytarıb evimə gətirmişdir. Axşam saat 1800 -də sağ-salamat gəlib Naxçıvana - evimə çatdım...

15 avqust 1995- ci il (Cərşənbə axşamı).

Sübhdən durub dəstəmaz alıb və vacib namaz qıldım. Mərhum valideynlərimə, baba-nənələrimə və dünyadan köçmüş qohum-əqrabalarımın ruhlarına Quran oxuyub və Allahdan rəhmət duası dilədim. Ailə və uşaqlarıma sağlıq və xoşbəxtlik istədim. Xalqıma, millətimə və mömin müsəlmanlara Xudadan səbr, əmin-amanlıq və uğurlar arzuladım. Allah böyükdür, mərhəmətlidir və duaları qəbul edəndir! Amin!

18 avqust 1995-ci il (Cümə).

Sübhdən durub dəstəmaz alaraq vacib namazı qıldım və ölənlərimizin ruhuna dua etdim. Günortaya yaxın yuyunaraq özümə "Cümə qüslu" verdim təzə paltarlarımı geyinərək məscidə, camaat namazına getdim. Orada mömin dostlarımla görüşdüm. Onlar sevinərək məni təbrik etdilər. Məscid yoldaşlarıma Məşhəddən alıb gətirdiyim gülab suyundan paylayaraq ehsan etdim. Mən Allaha şükrlər edib, arzuma çatmağıma sevindim. Məsciddə namaz qılarkən Allaha dua edib dedim;- "Xudaya, mənim arzu-niyyətimi qəbul etdiyin üçün sənə həmişə minnətdaram! Sən böyük, mərhəmətli və uca Allahsan! Sən mənim günahlarımı bağışla, valideynlərimə rəhmət et, uşaqlarımı, nəvələrimi xoşbəxt et, məni qiyamət günündə əməli salehlərdən qərar ver! Arzusunda olanlara da Məşhəd, Kərbəla və Həcc ziyarəti qismət etginən! Amin!

> *"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla- nahaqqı ayrıd edən (bir nur) verər, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf sahibidir!"*
>
> **(Ənfal surəsi, 29)**

"İnsana verilmiş bir dövlət varsa, o da Allahın bəxş etdiyi elmlə əxlaqındadır." (Abbasquluağa Bakıxanov Qüdsi).

Buradaca Xorasana turist-zəvvarlıq təəssüratlarımı başa çatdırıb və Allahın köməyi ilə yazdığım yol qeydlərimin son nöqtəsini qoyuram. Ümüdvaram ki, "Ziyarətnamə" dəyərli oxucuların qəlblərinə yol taparaq Allah və din yolundakı etiqadlarını işıqlandıracaq.

Naxçıvan şəhəri, 22 avqust 1995-ci il.

ALBOM

Foto şəkillər



Naxçıvan-İran Körpüsü - Culfa



Pol Doxtar Körpüsü - Miyanə



Feyruz Bağırov və Qasım Qulami - Culfa



Feyruz Bağırov yol yoldaşları ilə - Culfa



Yeni Avtovağzal – Təbriz



Qəzvin Şəhərindən bir görünüş



Şair Şəhriyarın Qəbri – Təbriz



Azadlıq Meydanı – Tehran



Məsumeyi Fatimə Türbəsi – Qum



İmam Rizanın Qəbri – Məşhəd